# Şərqin dünyaya bəxş etdiyi bəşəri dəyərlər xəzinəsidir NOVRUZ

Novruz UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınıb. BMT 2010-cu ildən 21 martı Beynəlxalq Novruz Günü elan edib. Bizim ən əziz və sevimli milli bayramımızdır Novruz: bəşəri dəyərlər toplusu, bəlkə də qədim sivilizasiyaların qan yaddaşında yaşadılan əks-sədasıdır bu bayram...

Təməlində dəqiq elmi mahiyyət durduğundan və tarixi eramızdan çox-çox əvvələ, müasir insan tipinin meydana gəldiyi dövrə qədər uzandığından Novruzun dinə, o cümlədən Zərdüştiliyə aidiyyəti yoxdur. Müxtəlif xalqların tədqiqatçılarının iddiasına görə, qədim mənbələrdə birbaşa və dolayı Novruz xatırlamaları bu bayramın köklərinin min illər əvvələ qədər uzandığını söyləməyə əsas verir. Türk xalqları Novruzu eramızdan 8 əsr əvvəldən qeyd edir və bu barədə ən qədim dastanlardan biri - "Ergenekon"da müfəssəl danışılır. Bu dastanda Oğuz türkərindən olan El Xanın törəmələrinin 4 əsr məskunlaşıb qaldığı yerdən - Ergenekondan çıxışının 21 martda baş verdiyi deyilir. Maraqlıdır ki, dastanda yol açmaq üçün dağlardakı dəmiri əritmək təklifindən və bunun üçün tonqal qalanmasından, alovun 70 yerdən hörüklənməsindən bəhs olunur. Beləcə, 21 mart türk əcdadlarımız tərəfindən azadlıq və bahar bayramı kimi hər il qeyd edilib.

Min illər öncə insanların təbiət elmləri haqqında bilikləri olduqca məhdud idi. Hər halda, bizim sivilizasiya Günəşin və Yerin hərəkəti, yaz bərabərliyi və bioloji proseslərin mexanizmi haqqında müfəssəl elmi məlumatlara son əsrlərdə, bəzi mətləblərə isə yaxın keçmişdə yiyələnib.

Qədim insanların xüsusi elmi anlamı olan 20 və 21 mart tarixlərini bayram etməsini, özü də bunu xüsusi simvollarla təkmilləşdirib min illərlə yaşatmasını təsadüfi, kortəbii prosesin nəticəsi kimi izah etmək məntiqli görünmür. Aqrar fəaliyyətlə, məişət vərdişləri ilə əlaqələndirmək də ağlabat deyil. Novruzun qeyd edildiyi coğrafi ərazi çox geniş və fərqlidir. Müxtəlif iqlim qurşaqlarını, relyefi, təbiət şəraitini əhatə edir. Uzaq Şərqdən Balkanlara, Yaxın Şərqə qədər uzanır. Dağlıq və düzənlik ərazilərdən keçir. Şübhəsiz ki, bu fərqlilik həm də təbiət hadisələrində, proseslərində özünü büruzə verir - bu, əkin-biçində, digər insan fəaliyyətlərində də fərqlilik yaradır. Amma buna baxmayaraq, hər yerdə eyni vaxtda - eyni günlərdə bayram edilir. Deməli, əsas məsələ bayramın təməlində dayanan mahiyyətdədir - o da sırf elmi əsaslıdır. Onda belə çıxır, insanlar ta qədimdə bizim indiki elmi biliklərə, bəlkə də daha artığına malik olublarmış. Bəlkə də bizim sivilizasiyadan yüksək mədəniyyətə yiyələniblərmiş... Hər halda, sonuncu buzlaşma dövründən əvvəl Yerdə başqa sivilizasiyaların olması, sonradan məhvi haqqında müəyyən fərziyyələr söylənilir. Ciddi dəlil, sübut olmasa da. Amma Novruzun kodlaşdırılmış informasiya yükü bununla bağlı dolayı ehtimal irəli sürməyə bəs edir.

Novruzun simvol və atributları bunu iddia etməyə yetəcək qədər ciddi arqumentlə zəngindir. Məsələn, su, od, yel və torpaq çərşənbələri sanki həyatın yaranma, formalaşma modelidir. Hətta bu günlərin ardıcıllığında belə xüsusi hikmət var:

İlk, təməl çərşənbə - SU ÇƏRŞƏNBƏSİdir. Niyə görə məhz Su?

Bildiyimiz kimi, su həyat daşıyıcısıdır. Yəni, hər növ canlı (bioloji) varlığın, həmçinin insanın yaranışının bütün elementlərini və əmələgəlmə mexanizmini, həmçinin bu prosesi hərəkətə gətirən, idarə edən "proqram təminatının" saxlanma, qoruma və nəql vasitəsidir.

Eləcə də təməl "xammal"ıdır - təsadüfi deyil ki, bütün canlılar, o cümlədən bitkilər əsasən sudan ibarətdir. Məsələn, insan beyninin 90 faizdən çoxu sudur. Bir sözlə, "su həyatdır" əbəs yerə deyilmir.

Bəs, nəyə görə birinci su çərşənbəsidir? Həyatın "qurulması" üçün suyun varlığı ilk şərtdir. Yəni, su yoxdursa, həyat da yoxdur və ya ola bilməz. Ehtimal etmək olaq ki, bu həm də Yer yaranmadan əvvəl də həyatın var olmasına ciddi vurğudur.

Kainat 13,830 milyard il qabaq yaranıb. Bizim qalaktika (Süd yolu) bundan 630 milyon il sonra formalaşmağa başlayıb və 13,2 milyard il yaşındadır. Amma Günəş sistemi xeyli gəncdir: cəmi 4,7 milyard il əvvəl "təməli atılıb". Bir qədər sonra - 4,57 milyard il qabaq isə Yer yaranıb. Amma Yerin həyat üçün münbit, münasib hala gəlməsi də milyon illər çəkib. Yəni, Günəş sistemi (Yer) yaranana qədər kainat kifayət qədər uzun müddət idi ki mövcud idi. İndi sual olunur: əgər 4,7 milyard il bundan qabaq "peyda" olmuş və bugünkü hala gəlmiş Günəş sistemində belə kamil həyat formaları yaranıbsa, deməli, bunun üçün tələb edilən müddətdən 2-3 dəfə artıq yaşdakı kainatda daha əvvəl yaranması, mövcud olması da mümkün idi. Novruz - ilk su çəhşənbəsi də yəqin ki, elə bunu deyir: su, yəni, həyat Yerdən qat-qat daha əvvəl yaranıb, olub. Suyun (deməli, həm də həyatın) Yerə kənardan gəldiyini müasir elm də söyləyir. Beləliklə, Su çərşənbəsi suyun həm Yerdən əvvəl varlığına, həm də həyatın Yerdən (bəlkə də materiyadan) öncə mövcudluğuna işarə ola bilər...



OD ÇƏRŞƏNBƏSİnin də mahiyyəti unikaldır. Od - enerjidir, maddi və canlı varlıqların yaranışının, həmçinin yaşamasının əsas şərtlərindəndir. Bütün fiziki, kimyəvi və bioloji proseslərin başlaması, inkişafı enerjisiz mümkün deyil. Bizim həyatın əsas enerji mənbəyi Günəşdir. Odlu qaz topalarından kainat boşluğunda Günəş yarandıqdan sonra qalan "inşaat materialları"ndan planetlər, o cümlədən Yer əmələ gəlib. Günəş bu sistemdəki bütün materiyanın (planetlər, onların peykləri, asteroid və kometaların) birgə kütləsinin 99,866 faizini təşkil edir.

Yer də ilk dövrlərdə od topa halında olub. Tektonik proseslər, vulkanik aktivlik səngiyəndən sonra planetin həyat üçün əlverişli formaya salınmasının növbəti mərhələsi başlayıb. Günəş şüası olmadan Yerdə heç bir həyat növü nə yarana, nə də yaşaya bilərdi. Amma Günəşdən saçan zərərli, öldürücü şüa növləri də var ki, onların qarşısı alınmadan da həyat əmələ gələ bilməzdi. Buna və digər mətləblərə işarə növbəti çərşənbədə ehtiva olunub. YEL ÇƏRŞƏNBƏSİ məhz bu prosesin (Yerin əmələgəlmə mərhələlərinin) növbəti mərhələsində atmosfer qatlarının yaranmasına işarədir. Atmosfer və onun qatları olmadan Yerdə nə hava (hava axınları, külək), nə də bioloji həyat mümkün olardı...

TORPAQ ÇƏRŞƏNBƏSİ : Torpaq - Yer səthinin hər növ canlı üçün münbit elementlərlə zəngin üst qatıdır. Əslində, çox nazik təbəqədir və kürənin üz qabığının ən son yaranan layıdır. Formalaşması milyon illər sürüb. Yerə su, dəmir və digər maddələr endirildikdən sonra zənginləşib, münbitləşib və formalaşıb.

Astronomik gecə-gündüz bərabərliyi əslində, ildə iki dəfə olur - əsasən də martın və sentyabrın 20 və ya 21-də. Amma mart bərabərliyi həm Yerin Günəş ətrafındakı hərəkətinin, həm də dövri bioloji proseslərin növbəti start "nöqtə"sidir. Bu səbəbdən məsələ təkcə gecə-gündüz bərabərliyində deyil.

Sadalananları nəzərə alaraq, Novruzun bayram olaraq meydana gəlməsini bəsit, primitiv səbəblərlə izah etmək, məsələn, bunu əkinçilik ənənələri ilə uzlaşdırmaq, yaxud bənzərlik üzərindən müxtəlif dinlərərin tarixi ilə əlaqələndirmək düzgün deyil. Bu bayramın etnik mənşəyini ad və ya forma xarakterli elementlər üzərindən müəyyənləşdirməyə cəhd göstərmək də yanlışdır.

Novruz Şərqin dünyaya bəxş etdiyi bəşəri dəyərlər toplusudur. Etnik milliyətçilik anlayışı Şərqə tarixən yad olub. Şərqin irili-xırdalı bütün dövlətləri, müxtəlif sosial birlik formaları heç bir zaman etnik-milli kimliklər əsasında qurulmayıb. Bu dövlət quruluşlarına, sosial-iqtisadi münasibətlərə, eləcə də mədəniyyət ənənələrinə də ciddi sirayət edib: xalqlar arasında etnik fərq, sərhəd çəkilməyib, fərq qoyulmayıb. Qazanılan bəşəri dəyərlər, mədəniyyət, irs ümumiləşib. Novruz da istisna deyil. Bayram bütün qədim və müasir türk dövlətlərində, eləcə də Misirdə, İranda, Əfqanıstanda, Qırğızıstanda, digər yerlərdə yaşadılıb. Bu ənənələr Göytürklər dövründə, Oğuz ellərində, Anadolu bəyliklərində, hər iki taylı Azərbaycan ərazilərini əhatə edən bütün dövlətlərdə, Səfəvilərdə, Səlcuqluda, Osmanlıda milli bayram kimi həmişə sevilib.

Onu da qeyd edək ki, qədim türk təqvimində bir gün 12 bölümə ayrılıb və hər bölüm "cağ" adlanıb. Hər cağ 2 saata bərabər olub. Novruzun qədim türk adı da var. Ulu əcdadlarımız 21 mart bayram gününü və yeni astronomik ilə keçid anını min illər öncə "İlqayaq" adlandırıblar.

Azərbaycan türkləri Novruzun bütün mahiyyətini, maddi-mənəvi dəyərlər xəzinəsini qan yaddaşında bugünümüzə qədər yaşadıb və nə qədər ki, həyat var, özü ilə daşıyıb dünya ilə paylaşacaq. Dünya da bu dəyərləri nə qədər çox əxz edib mənimsəsə, həyatın hər cağı da bir o qədər xoş və firavan olar.

***Elxan QƏNBƏRLİ,***
***"Azərbaycan"***